# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# SƏRƏNCAM

**№ 41 s**

**Bakı şəhəri,** « 16 » fevral **2015-ci il**

"Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 31 oktyabr tarixli 809 nömrəli Fərmanının 2-ci hissəsinin beşinci abzasına əsasən:

1. Azərbaycan Respublikasının 2016-cı il və sonrakı üç il üçün dövlət büdcəsinin və icmal büdcənin layihələrinin müəyyən olunmuş müddətdə hazırlanmasını təmin etmək məqsədi ilə aşağıdakı tərkibdə komissiyalar yaradılsın:

**Gəlirlər üzrə Komissiya**

| | |
|---|---|
| Azər Bayramov | - maliyyə nazirinin müavini, komissiyanın sədri |
| Fikrət Şirinov | - Maliyyə Nazirliyinin vergi siyasəti və gəlirlər şöbəsi müdirinin müavini, komissiya sədrinin müavini |

**Komissiyanın üzvləri:**

| | |
|---|---|
| İlkin Vəliyev | - Vergilər Nazirliyinin İqtisadi təhlil və sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı baş idarəsinin rəisi |
| Natiq Şirinov | - Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar baş idarəsinin rəisi |
| Rafiq Əliyev | - Energetika Nazirliyinin iqtisadiyyat, elm və innovasiya şöbəsinin müdiri |
| Mirqasım Vahabov | - Dövlət Gömrük Komitəsinin Maliyyə-tarif və valyuta nəzarəti baş idarəsinin rəisi |
| Nuru Süleymanov | - Dövlət Statistika Komitəsinin milli hesablar və makroiqtisadi göstəricilər statistikası şöbəsinin müdiri |

| | |
|---|---|
| Ənnağı Cənnətov | - Əmlak Məsələləri Dövlət Komitəsinin iqtisadi təhlil, daxilolmalar və satınalmalara nəzarət şöbəsinin müdiri |
| Azər Ələsgərov | - Mərkəzi Bankın Pul siyasəti departamentinin direktoru |
| Fərid Baxşıyev | - Dövlət Sosial Müdafiə Fondunun proqnozlaşdırma şöbəsinin müdiri vəzifəsini müvəqqəti icra edən |
| Siyavuş Mustafayev | - İqtisadiyyat və Sənaye Nazirliyinin iqtisadi siyasət, təhlil və proqnozlaşdırma şöbəsi müdirinin müavini |
| Müşviq Bayramov | - Dövlət Neft Fondunun Büdcə proqnozlaşdırma və layihələr departamentinin direktoru |
| Valeh Xubanov | - Nəqliyyat Nazirliyinin maliyyə və investisiya şöbəsinin sektor müdiri |
| Tural Ələkbərov | - Ədliyyə Nazirliyinin Qanunvericilik baş idarəsinin baş məsləhətçisi vəzifəsini icra edən |

**Xərclər üzrə Komissiya**

| | |
|---|---|
| İlqar Fəti-zadə | - maliyyə nazirinin birinci müavini, komissiyanın sədri |
| Fazil Fərəcov | - Maliyyə Nazirliyinin büdcə şöbəsinin müdiri, komissiya sədrinin müavini |

**Komissiyanın üzvləri:**

| | |
|---|---|
| Rəşad Hüseynov | - Milli Təhlükəsizlik Nazirliyinin Maliyyə idarəsinin rəisi |
| Səxavəddin Abdullayev | - Daxili İşlər Nazirliyinin Maliyyə-plan idarəsinin rəisi |
| Lamiyə Canəhmədova | - Xarici İşlər Nazirliyinin Maliyyə-valyuta idarəsinin rəisi |
| Rauf Orucov | - Təhsil Nazirliyinin iqtisadiyyat şöbəsinin müdiri |
| Azad Vəliyev | - Səhiyyə Nazirliyinin maliyyə-iqtisadiyyat şöbəsinin müdiri |
| Sima Həsənova | - Mədəniyyət və Turizm Nazirliyinin iqtisadiyyat şöbəsinin müdiri |

| | |
|---|---|
| Nağı Nağıyev | - Fövqəladə Hallar Nazirliyinin Maliyyə-iqtisadiyyat baş idarəsinin rəisi |
| Şəlalə Cəfərova | - Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin iqtisadiyyat şöbəsinin müdiri |
| Namiq Poladov | - Müdafiə Nazirliyinin Maliyyə və büdcə idarəsinin rəisi |
| Tofiq Şamilzadə | - Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin maliyyə, mühasibat və iqtisadiyyat şöbəsinin müdiri |
| İlqar Quliyev | - Azərbaycan Milli Elmlər Akademiyasının maliyyə-iqtisad və mühasibat uçotu şöbəsinin rəisi |
| Fərid Baxşıyev | - Dövlət Sosial Müdafiə Fondunun proqnozlaşdırma şöbəsinin müdiri vəzifəsini müvəqqəti icra edən |
| Ramin Dənyarov | - İqtisadiyyat və Sənaye Nazirliyinin iqtisadi siyasət, təhlil və proqnozlaşdırma şöbəsi müdirinin müavini |
| Rasim Əliyev | - Kənd Təsərrüfatı Nazirliyinin maliyyə və mühasibat uçotu şöbəsi müdirinin müavini |
| İlham Daşdəmirov | - Nəqliyyat Nazirliyinin maliyyə və investisiya şöbəsi müdirinin müavini. |

2. Azərbaycan Respublikasının aidiyyəti nazirliklərinə, komitələrinə, idarə və təşkilatlarına, habelə mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, bütün müəssisələrə tapşırılsın ki, bu sərəncamın 1-ci hissəsi ilə yaradılmış komissiyaların sorğularına tam və vaxtında cavab verilməsini təmin etsinlər.

3. Gəlirlər və xərclər üzrə komissiyalara tapşırılsın:

3.1. aidiyyəti üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələrinin tərtibi zamanı dünya iqtisadiyyatında mövcud olan risklərin Azərbaycana ehtimal olunan təsirlərini diqqətdə saxlamaqla, ölkənin sosial-iqtisadi inkişafını, ortamüddətli makroiqtisadi çərçivəni, real vergi bazasını, müvafiq dövlət proqramlarını, prioritet tədbir və xərcləri nəzərə alsınlar;

3.2. iri vergi ödəyicisi olan dövlət müəssisələrinin növbəti il üçün gəlirlər və xərclər smetaları layihələrinin həmin müəssisələrin nümayəndələrinin iştirakı ilə müzakirə edilməsini təmin etsinlər.

4. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

Azərbaycan Respublikasının Baş naziri — Artur Rasi-zadə

Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatı ÜMUMİ ŞÖBƏ